Programmatic Cooperation Framework for
Armenia, Azerbaijan, Georgia, Republic of Moldova, Ukraine and Belarus

Funded by the European Union and the Council of Europe

EUROPEAN UNION

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

Implemented by the Council of Europe

# MƏTBUAT ÜÇÜN QEYD

## Pentensiar islahatların təşviq edilməsi (cəzalandırma yanaşmasından islah etmə yanaşmasına keçid)

## Regional layihə

### Layihədən kim bəhrələnəcək?

- Ermənistan, Azərbaycan, Gürcüstan, Moldova Respublikası və Ukraynada (hədəf ölkələr) həbs altında cəza çəkən, qanunu pozan şəxslər;
- Hədəf ölkələrin bütün əhalisi, hədəf ölkələrdə azadlıqdan məhrum etmə cəzalarının və şərti azadlığa buraxma qərarlarının həyata keçirilməsi üçün cavabdeh olan müvafiq nazirliklər.

### Layihənin məqsədləri

- həbsxanalarda məhbus sayının həddindən çox olması halları əleyhinə mübarizə aparmaq və ictimai qınaq tədbirləri və cəzalarının tətbiqinə dəstək vermək;
- həbsxanalarda məhbus sayının həddindən çox olması halları əleyhinə mübarizə sahəsində regional əməkdaşlıq qurmaq və buna dair strateji yanaşma təyin etmək;
- sabiq məhbusların təkrarən cinayət törətməsi hallarının sayını azaltmaq və bununla da daha sağlam cəmiyyətin qurulmasına və cinayət sayının azaldılmasına töhfə vermək.

### Layihə necə işləyəcək?

- ikitərəfli əməkdaşlıq, habelə çoxtərəfli təcrübə mübadiləsi və çarpaz qarşılıqlı təmaslar yolu ilə;
- hədəf ölkələrin müvafiq nazirliklərinin nümayəndələrinin iştirakı ilə işçi iclasların keçirilməsi yolu ilə, hədəf ölkələrdə həbsxanalarda həddindən çox məhbus olması halları əleyhinə mübarizə mövzusunda həyata keçirilmiş tədqiqatın nəticələri əsasında müqayisəli təhlil hesabatının işlənib hazırlanması yolu ilə;
- həbsxanalarda həddindən çox məhbus olması halları əleyhinə mübarizə aparmaq məqsədilə hədəf ölkələrin müvafiq nazirliklərinin orta və yüksək səviyyəli

### Layihə tədbirləri

- Aşağıdakı sənədləri altı dilə - erməni, Azərbaycan, gürcü, rumın, rus və Ukrayna dillərinə tərcümə etmək: Avropa Şurası nazirlər Komitəsinin tövsiyələri və Avropa Şurasının İşgəncə əleyhinə komitəsinin həbsxanalarda məhbus sayının həddindən çox olması halları əleyhinə mübarizə haqqında ümumi hesabatlarından çıxarışlar;
- Avropa Şurasının həbsxanalarda məhbus sayının həddindən çox olması halları əleyhinə mübarizə haqqında sənədlərinin elektron məcmularını altı dildə işləyib hazırlamaq və pentensiar və şərti azadlığa buraxma orqanlarına, habelə hədəf ölkələrdə həbsxana və şərti azadlığa buraxma orqanları heyətlərinin təlimləndirilməsi üçün cavabdeh olan təlim mərkəzlərinə paylamaq;

Funded
by the European Union
and the Council of Europe

EUROPEAN UNION

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

Implemented
by the Council of Europe

# MƏTBUAT ÜÇÜN QEYD

## Pentensiar islahatların təşviq edilməsi
## (cəzalandırma yanaşmasından islah etmə yanaşmasına keçid)

## Regional layihə

nümayəndələri arasında uğurlu təcrübələrin mübadiləsi üçün hər hansı şəbəkənin və hər hansı forumun təsis edilməsi yolu ilə.

- Hədəf ölkələrdə həbsxanalarda məhbus sayının həddindən çox olması halları mövzusunda tədqiqat aparmaq və konkret ölkə üçün tövsiyələr işləyib hazırlamaq;
- Hədəf ölkələrdə həbsxanalarda məhbus sayının həddindən çox olması halları mövzusunda tədqiqatın əsas tapıntılarını işıqlandıran yüksək səviyyəli konfrans keçirmək, verilən tövsiyələri müzakirə etmək və onların həyata keçirilməsinin mümkün yollarını təyin etmək.

### Bu layihənin dəyəri nə qədər olacaq?

- Layihənin ümumi büdcəsi 110.000 avrodur.

### Layihənin müddəti

- Proqram 1 avqust 2015-ci ildən 28 fevral 2016-cı ilədək həyata keçiriləcək;
- Layihə 3 avqust 2015-ci ildə başladılıb.

### Layihə üçün kim cavabdehdir?

Layihə Avropa Şurasının İnformasiya cəmiyyəti və cinayət əleyhinə fəaliyyət müdiriyyəti tərəfindən həyata keçirilir.

### Daha çox məlumat əldə etmək üçün

- Givi Mikanadze, Proqram meneceri

givi.mikanadze@coe.int

Programmatic Cooperation Framework for
Armenia, Azerbaijan, Georgia, Republic of Moldova, Ukraine and Belarus

Funded
by the European Union
and the Council of Europe

EUROPEAN UNION

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

Implemented
by the Council of Europe

# MƏTBUAT ÜÇÜN QEYD

## Pentensiar islahatların təşviq edilməsi
## (cəzalandırma yanaşmasından islah etmə yanaşmasına keçid)

## Regional layihə

*2014-cü ilin aprel ayında Avropa İttifaqı və Avropa Şurası Aİ-nin Şərq Tərəfdaşlığı ölkələri-Ermənistan, Azərbaycan, Gürcüstan, Moldova Respublikası, Ukrayna və Belarusla nəzərdə tutulan əməkdaşlıq fəaliyyətlərinin "Proqramlı Əməkdaşlıq Çərçivəsi"nə (PCF) əsasən həyata keçirilməsi barədə razılığa gəldilər.*

*Həmin əməkdaşlıq fəaliyyətləri Avropanın insan hüquqları, demokratiya və qanunun aliliyi üzrə standartlarına yaxınlaşmaq üçün ölkədaxili islahatların həyata keçirilməsi məqsədilə Belarus istisna olmaqla, Avropa Şurasının üzvü olan Şərq Tərəfdaşlığı ölkələrinin imkanlarını artıracaq.*

*2015-2017-ci illər üçün PCF-nin ümumi budcəsi €33.8 milyon avrodur.*